

# Dönməz Hüseynov

Bakı şəhəri, Yasamal rayonu
Həsən bəy Zərdabi 3166
+99450 5895749
donmazhussein@outlook.com
01.02.1997

**Yüksək motivasiyalı biri olaraq, kommunikasiya və PR sahəsindəki təcrübəmi yenilikçi yanaşmalarla daha böyük layihələrdə tətbiq etməyə hazıram.**

## Karyera

**Bizim Yükdaşıma MMC -** *2022*
*İctimai Əlaqələr üzrə Aparıcı Mütəxəssis*
- Şirkətin ictimaiyyətlə əlaqələrini gücləndirmək məqsədilə mətbuat bülletenləri və PR materialları hazırlamışam. Müştəri məmnuniyyətini artırmaq üçün təsirli kommunikasiya strategiyaları inkişaf etdirmişəm.

**“149 Avto Təlim” Kursları -** *2022*
*PR və Kommunikasiya üzrə Mütəxəssis*
- Sosial media və onlayn platformalarda şirkətin görünürlüğünü artırmaq üçün strateji kampaniyalar həyata keçirməklə şirkətin imicini müsbət yöndə inkişaf etdirmişəm.

**Baku TV** *- 2021*
*Jurnalist*
- Aktual xəbərləri dərin araşdırmalarla təqdim edərək, izləyicilər üçün əhəmiyyətli və maraqlı məzmun yaratmışam. İntervyular apararaq, müxtəlif sahələrdə ekspertlərin fikirlərini yayımlamışam.

**Qazet.az Xəbər Portalı -** *2021*
*Jurnalist*
- Aktual xəbərləri dərin araşdırmalarla təqdim edərək, oxucular üçün əhəmiyyətli və maraqlı məzmun yaratmışam. İntervyular apararaq, müxtəlif sahələrdə ekspertlərin fikirlərini dərc etmişəm.

**NTV (Naxçıvan Teleradiosu) -** *2019*
*Radio Aparıcı (Səhər və Axşam Xəbərləri - Talk Show)*
- Səhər və axşam xəbərlərinin hazırlanması və təqdimatında aktiv iştirak etmişəm, dinləyicilərlə etibarlı əlaqələr qurmuşam. Talk show formatında proqram aparmışam.

**Aktual Xəbər Portalı -** *2017*
*Jurnalist və redaktor*
- Aktual və ictimai əhəmiyyət daşıyan xəbərlərin hazırlanması və yayımlanması.
- Xəbər mətnlərinin redaktəsi və məzmunun dəqiqliyinin, obyektivliyinin təmin edilməsi.

**ARB - Kəpəz TV -** *2016*
*Jurnalist*
- Yerli və regional mövzuları əhatə edən xəbərlərin hazırlanması və yayımlanması. Aktual hadisələrin operativ şəkildə işıqlandırılması və tamaşaçılara obyektiv məlumatların çatdırılması.

**ANS ÇM -** *2015*
*Jurnalist*
- Çoxşaxəli mövzular üzrə araşdırmalar apararaq auditoriyanın məlumatlanmasına və maarifləndirilməsinə töhfə vermək. Sürətli və peşəkar şəkildə operativ xəbərləri izləyicilərə çatdırmaq.

# Təhsil

**Azərbaycan Texnologiya Universiteti**
*Komputer Mühəndisliyi - Bakalavr*
2014 - 2018

# Dil bilikləri

**Azərbaycan dili**
*Ana dili*

**İngilis dili**
*B1 səviyyədə*

# Nailiyyətlər

**IPRA (International Public Relations Association)**
IPRA Public Relations Training: PR sahəsinin əsasları haqqında təlim

**HubSpot Content Marketing Certification**
Sosial mediada PR strategiyalarının qurulması təlimi

**NAYORA**
PR və media əlaqələri üzrə seminar

**University of Colifornia**
PR üzrə əlavə təhsil

**Chai Khana Media**
Media və Kommunikasiya **-** Qafqaz ölkələri arasında keçirilən yarışmada Azərbaycan üzrə qalib və 3 aylıq beynəlxalq media təcrübəsi

**Bakı Dövlət Universiteti (BDU)**
Jurnalistika üzrə əlavə təhsil, təlimlər və metodik kurslar

**Azərbaycan Respublikası Müdafiə Nazirliyi**
Hərbi jurnalistika üzrə əlavə təhsil

# Bacarıqlar

- PR kampaniyaları və layihələrin idarə olunmasında Microsoft Office, Google Workspace, Slack, və Trello kimi məhsuldarlıq və əməkdaşlıq proqramlarını səmərəli istifadə etmək.
- Akademik və peşəkar kontekstdə mükəmməl yazılı materiallar hazırlamaq, biznes təqdimatları və hesabatları yazmaq, habelə müxtəlif auditoriyalar qarşısında etibarlı və təsirli çıxışlar etmək.
- PR strategiyalarını formalaşdırmaq üçün geniş məlumatları təhlil edərək, müvafiq nəticələr çıxarmaq, media monitorinqi və auditoriya tədqiqatları aparmaq.

# Dönməz Hüseynov

Bakı şəhəri, Yasamal rayonu
Həsən bəy Zərdabi 3166
+99450 5895749
donmazhussein@outlook.com

01 yanvar 2025

Elmar Abdullayev
**Bizim Yükdaşıma MMC**
Marketinq Direktoru
Bakı şəhəri, Yasamal rayonu
Abbas Mirzə Şərifzadə 241E

Hörmətli xanım/bəy,

Mən, Bizim Yükdaşıma MMC-nin marketinq direktoru Elmar Abdullayev, Dönməz Hüseynovu Sizə tövsiyə etməkdən məmnunam. O, şirkətimizdə İctimai Əlaqələr üzrə Aparıcı Mütəxəssis olaraq çalışmışdır və burada öz peşəkarlığı, yaradıcılığı və işə olan bağlılığı ilə hər daim diqqət çəkmişdir.

Dönməz, iş yerində effektiv kommunikasiya və müştəri məmnuniyyətini artırmaq üçün müxtəlif PR strategiyaları hazırlayıb. O, həmçinin, mediada müsbət imic yaratmaq məqsədilə uğurlu kampaniyalar həyata keçirib. Dönməz, müştəri əlaqələrini gücləndirmək və şirkətimizin xidmətlərini daha geniş auditoriyaya tanıtmaq üçün innovativ yanaşmalar təqdim etmişdir.

Onun müstəqil və komanda şəklində çalışma bacarığı, müştərilərlə əlaqələri gücləndirmək üçün mükəmməl bir əlavədir. Dönməz, həmçinin analitika və böhranın idarə olunması sahəsindəki bacarıqları ilə layihələrin müvəffəqiyyətlə icra olunmasında mühüm rol oynayıb.

Dönməz Hüseynov, yaradıcı fikirləri və yüksək iş etikası ilə hər zaman müsbət nəticələr əldə edib. Onun müsbət yanaşması, iş mühitini canlandırdı və komanda ruhunu artırdı.

Mən Dönməz Hüseynovun işə olan həvəsini və peşəkarlığını yüksək qiymətləndirirəm. O, istədiyiniz mövqedə müvəffəqiyyət qazanmaq üçün əla bir namizəddir.

Hər hansı sualınız olarsa, mənimlə əlaqə saxlamaqdan çəkinməyin.

Hörmətlə,
Elmar Abdullayev
Marketinq Direktoru
Bizim Yükdaşıma MMC

+99450 2311728
marketing@bizimyuk.az